# Tvinninq Layihəsinin Yekun Hesabatı

AVROPA KOMİSSİYASI
TVİNNİNQ LAYİHƏSİ
YEKUN HESABAT

**Layihənin adı:** Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək

**Tərəfdaşlar:**
Finlandiya Statistika İdarəsi
Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti
Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**Tarix:** 25.06.2020 – 24.04.2022

**Tvinninq layihə nömrəsi:** AZ/16/ENI/ST/01/19 (AZ/53)

**Tvinninq qrant müqaviləsinin nömrəsi:** ENI/2020/416-128

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Sənədin məzmununa yalnız Finlandiya Statistika İdarəsinin rəhbərlik etdiyi konsorsium məsuliyyət daşıyır və sənəd Avropa İttifaqının fikirlərini əks etdirmir.

# Fəsil 1: Layihə məlumatları

| | |
|---|---|
| **Tvinninq qrant müqaviləsinin nömrəsi:** | ENI/2020/416-128 |
| **Layihənin adı:** | Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək |
| **Tvinninq layihəsinin tərəfdaşları (Üzv dövlət(lər) və benefesiar ölkə)** | Benefisiar qurumlar:<br>Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi<br>Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti<br>Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi<br><br>Aparıcı ÜD: Finlandiya Statistika İdarəsi<br>İkinci dərəcəli ÜD: Litva Statistika Departamenti<br>İkinci dərəcəli ÜD: Niderland Mərkəzi Statistika Bürosu |
| **Layihə müddəti:** | 17 ay + 5 ay uzatma müddəti<br>25.06.2020 – 24.04.2022 |
| **Üzv Dövlətdən Layihə Rəhbəri:** | Xanım Hannele Orjala, Finlandiya Statistika İdarəsi<br><br>İmza: ____________________________<br><br>Tarix: 09.06.2022 |
| **Benefisiar Ölkədən Layihə Rəhbəri:** | Cənab Qasım Əliyev, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi<br><br>İmza: ____________________________<br><br>Tarix: |

# İxtisarların siyahısı

İK İnzibati koordinator
İM İnzibati məlumat
BQ Benefisiar qurum
BÖ Benefisiar ölkə
BS Biznes statistikası
KR Komponent rəhbəri
NM Normalar MəcəlləsiAkR Alt-komponent rəhbəri
BD Baş direktor
ŞT Şərq Tərəfdaşlığı
AK Avropa Komissiyası
Aİİ Avropa İqtisadi Birliyi
AQTA Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti
Aİ Avropa İttifaqı
AİN Avropa İttifaqının Nümayəndəliyi
ÜDM Ümumi Daxili Məhsul
SBPÜM Statistik Biznes-Prosesin Ümumi Modeli
ƏƏSMN Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
İN İqtisadiyyat Nazirliyi
ÜD Üzv dövlət
MSİ Milli Statistika İnstitutu
MSQ Milli Statistika Qurumu
MSS Milli Statistika Sistemi
İƏİT İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
LİQ Layihə İdarəetmə Qurumu
LR Layihə rəhbəri
LİK Layihə İdarəetmə Komitəsi
RH Rüblük hesabat
R R proqramlaşdırma dili
TRM Tvinninq üzrə Rezident Müşavir
TRMK Tvinninq üzrə Rezident Müşavirin köməkçisi TRM-T Tvinninq üzrə Rezident Müşavirin tərcüməçisi
SBS Struktur Biznes Statistika
KOM Kiçik və orta müəssisələr
KOBİA Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
SVDR Statistik Vahidlərin Dövlət Reyestri
DSK Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
QME Qısamüddətli Ekspert
DVX Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti
TY Texniki Yardım
TŞ Texniki Şərtlər

# Fəsil 2: Məzmun

Bu fəsildə layihənin nailiyyətləri təsvir olunur. Bu fəsil 16 fəsilə bölünür.

2A - İCMAL
2B - ÜMUMİ MƏLUMAT
2C - İCRA PROSESİ
2D - İCBARİ NƏTİCƏLƏRİN ƏLDƏ OLUNMASI VƏ NƏTİCƏLƏRƏ BİRBAŞA TƏSİR

2E - TƏSİR
2F - SONRAKI TƏDBİRLƏR VƏ DAYANIQLILIQ
2G - YEKUN NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR
2H - ƏLAVƏLƏR

## 2A - İCMAL

Bu, "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" Tvinninq layihəsinin yekun hesabatıdır.

Benefisiar qurumlar Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (DSK), Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) olmuşdur.

Layihə ikinci dərəcəli tərəfdaş qismində çıxış edən Litva Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosu ilə birlikdə, Danimarka Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutunun ekspert dəstəyi ilə Aparıcı təşkilat qismində çıxış edən Finlandiya Statistika İdarəsi tərəfindən həyata keçirilmişdir. Hesabat 25 iyun 2020-ci ildən 24 aprel 2022-ci il ədək (22 ay) müddəti əhatə edir.

Layihənin ümumi məqsədi Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarət olmuşdur. Layihənin xüsusi məqsədi statistik biznes reyestrlərini təkmilləşdirmək və istifadəçilərin biznes statistikasına olan tələbatı nəzərə alınmaqla biznes statistikasının metodologiyasını Aİ standartlarına uyğunlaşdırmaq məqsədilə DSK və DVX-nin potensialının artırılmasından ibarət olmuşdur.

Covid-19 pandemiyası səbəbindən Tvinninq üzrə Rezident Müşavir (TRM) vəzifəsini distant olaraq icra etməyə başladı və beləliklə, layihənin icrasına başlanıldı. Prioritet, layihənin yerli işçiləri olan TRM köməkçisi və tərcüməçi ilə xidmət müqavilələrinin imzalanmasına verildi. İllik məzuniyyət dövrü ilkin planlama mərhələsində kiçik yubanmalara səbəb olsa da, daha sonra yubanmalar aradan qaldırıldı. Covid-19 və daha sonra Azərbaycanın qərbində baş verən hadisələr müəyyən problemlərə səbəb oldu, lakin iştirakçıların sıx əməkdaşlığı nəticəsində bu çətinliklərin öhdəsindən gəlindi.

İlkin planlama mərhələsindən sonra layihə sürətlə icra mərhələsinə keçdi və fəaliyyətlərin distant sessiyalar formatında keçirilməsinə başlandı. İcra mərhələsinin qalan fəaliyyətlərinin cədvəli əsasən planlaşdırılmışdı (Əlavə 3, icra cədvəlinə baxın). 2021-ci ilin avqust ayının sonunadək fəaliyyətlər distant sessiyalar formatında, daha sonra isə ənənəvi missiyalar şəklində keçirilməyə başlanıldı. Həmin zaman QME-lər artıq peyvənd olunmuş və əksər hallarda səfər edə bilirdilər.

2021-ci ilin birinci yarısında həm üzv dövlətlərdə, həm də benefisiar ölkədə Covid-19 əleyhinə peyvəndləmə prosesi sürətləndi. Layihənin idarəetmə heyətinin üzvləri, qısamüddətli ekspertlər və BÖ rəsmiləri 2021-ci ilin avqust ayınadək peyvənd olundular. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasına və ölkə xaricinə səfər etməyə icazə verilən ölkələrin siyahısının genişləndirilməsinə dair qərar qəbul etdi və bu, BÖ-ə səfər etməyə imkan yaratdı (Finlandiya və Litva 2021-ci il 6 sentyabr tarixində bu siyahıya əlavə edildi). Niderland və Danimarka siyahıya 2021-ci il 5 avqust tarixində daxil edilmişdir. Bu qərar QME-lərin viza əldə etmə prosesini çox asanlaşdırdı.

Tvinninq üzrə Rezident Müşavir 2021-ci il 8 sentyabr tarixində Azərbaycana gəldi və onun gəlişi ilə layihə çərçivəsində həyata keçirilən distant sessiyalar ənənəvi missiyalarla əvəzləndi. O, 9 sentyabr tarixində DSK-də öz vəzifəsinin icrasına başladı. TRM-in gəlişindən az sonra İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində TRM-in qarşılanması (texniki) tədbiri keçirildi. İlk üzbəüz missiya 20 sentyabr 2021-ci ildə başladı.

ÜD ekspertləri və dörd benefisiar qurumun mütəxəssisləri prosesə yaxından cəlb olunmuş və fəal iştirak etmişlər. Eləcə də missiyalar arasındakı müddətdə ev tapşırıqlarının yerinə yetirilməsi ilə yanaşı, diqqətin praktiki hallərə yönəldilməsi nəzərəçarpacaq nəticələrin əldə olunmasına gətirib çıxarmışdır. Layihənin icra müddətində təşkilati məsələlər baxımından ünsiyyət bütün səviyyələrdə əsasən yaxşı və konstruktiv olmuşdur.

Həm ÜD, həm də BÖ ekspertləri tərəfindən istifadə edilən layihənin veb səhifəsinə Finlandiya Statistikasının veb saytı vasitəsilə daxil olmaq mümkündür. Bütün missiya hesabatları və layihə ilə bağlı digər sənədləri, o cümlədən rüblük xəbər bülletenləri layihənin veb səhifəsində yerləşdirilmişdir: https://www2.stat.fi/aztwinning

**Layihənin icrası**

Layihə müddətində 75 iştirakçı və 1977 iş gününü əhatə edən 34 qısamüddətli ekspert missiyası, 3 təlim səfəri, 5 daxili seminar, 4 işıqlandırma tədbiri keçirilmiş və mətbuatla 4 yüksək səviyyəli müsahibə verilmişdir. Qiymətləndirmə rəyləri baxımından 5 ballıq şkala üzrə ortalama 4.7 bal olmaqla mükəmməl nəticə əldə edilmişdir.

Tvinninq layihəsi planlaşdırıldığı kimi həyata keçirilmişdir. Razılaşdırılmış bütün icbari nəticələr və meyarlar əldə edilmişdir. Tvinninq müqaviləsində müəyyən edilmiş boşluqlar aradan qaldırılmışdır.

BÖ rəhbərliyi layihənin hər üç komponenti üzrə ÜD-in tərəfdaş institutlarının praktiki iş təcrübəsinə dair məlumat əldə etmişdir. Hər iki tərəfin ekspertləri Azərbaycanda statistika sisteminin daha da təkmilləşdirilməsi istiqamətində həllərin işlənib hazırlanmasında uğurla əməkdaşlıq etmişlər. Bundan əlavə, tərəfdaş üzv dövlətlərdə Aİ qanunvericiliyinin tətbiqi və işin təşkili təcrübəsi ilə tanış olmaq məqsədilə BÖ işçi heyəti üçün təlim səfərləri təşkil edilmişdir.

Layihə çərçivəsində aparılan iş sayəsində müzakirə olunan standartları DSK-da tətbiq etmək mümkün olmuşdur. Mövzu ilə bağlı komponentlərə gəldikdə, metodoloji sənədlər təkmilləşdirilmiş və

məlumatların ötürülməsi məsələləri nəzərdən keçirilmişdir. İnzibati məlumatlarla sorğu məlumatlarının müqayisə edilməsi istiqamətində aparılmış pilot araşdırma nəticəsində olduqca yaxşı nəticələr əldə edilmiş və illik KOM hesabatı əsaslı şəkildə yenilənmiş və təshih edilmişdir.

## 2B - ÜMUMİ MƏLUMAT

**Başlanğıc**

Bu fəsildə Tvinninq fiş sənədinin nəşri zamanı mövcud vəziyyət və ümumilikdə layihənin başlanğıcı təsvir edilmişdir.

Azərbaycan Respublikası bundan əvvəl iki Tvinninq layihəsi çərçivəsində seçilmiş statistik sahələrin Aİ standartlarına uyğunlaşdırılması istiqamətində Aİ-dən yardım almışdır: 2009-2012-ci illərdə həyata keçirilmiş "Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indeksi sahələrinin Avropa standartlarına çatdırılması sahəsində Dövlət Statistika Komitəsinə dəstək göstərilməsi" Tvinninq layihəsi (AZ08/ENP-PCA/FI/06 -Destia, NSI-BG) və 2015-2017-ci illərdə həyata keçirilmiş "Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə dəstək” Tvinninq layihəsi (AZ/14/ENP/ST/32 - Destisis, NSI-BG), eləcə də “Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi” texniki yardım layihəsi (ENPI/2017/390-829 - ICON, yanvar 2018 – yanvar 2020). Bundan əlavə, DSK bir sıra TAİEX fəaliyyətləri vasitəsilə Aİ dəstəyindən yararlanmışdır. DSK və Bolqarıstanın Milli Statistika İnstitutu arasında ikitərəfli əməkdaşlıq proqramı 1999-cu ildən həyata keçirilir. DSK və Niderland Mərkəzi Statistika Bürosu arasında ikitərəfli əməkdaşlıq proqramı 2020-ci ildən həyata keçirilir (DSK > Haqqımızda > Beynəlxalq əməkdaşlıq).

Azərbaycan Respublikası bir çox sektorlarda Aİ Tvinninq mexanizmindən fəal surətdə yararlanır. Bu layihənin başlanğıcında 17 Tvinninq layihəsi həyata keçirilirdi. 2020-ci ildə Azərbaycanda həyata keçirilən Tvinninq layihələrindən biri 2020-ci ilin ən yaxşı Tvinninq layihəsi seçilmişdir.

Azərbaycanın KOM sektorunun inkişafına dəstək üzrə milli strategiyasına uyğun olaraq, vaxtında istehsal edilən dəqiq statistik məlumatlar vasitəsilə KOM-ların cari vəziyyətinin və inkişafının monitorinq edilməsinə nail olmaq mümkündür. Bu, mahiyyət etibarilə, Tvinninq layihəsinin əsas məqsədidir. Layihə Finlandiya Statistika İdarəsi tərəfindən ikinci dərəcəli tərəfdaşlar olan Litva Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosu ilə birlikdə və Danimarka Statistika Bürosu ilə əməkdaşlıq edərək müvəffəqiyyətlə həyata keçirilmişdir.

Tvinninq layihəsinin *hər bir komponenti üzrə başlanğıc nöqtələri* aşağıda təsvir edilmişdir:

**1-ci komponent: İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında mövcud olan məlumat mübadiləsinin keyfiyyətinin yaxşılaşdırılması üçün konkret tədbirlər həyata keçirilmişdir**

İnzibati məlumatların ötürülməsi mütəmadi olaraq həyata keçirilirdi, lakin DSK və DVX arasında ünsiyyət az idi və məlumat mübadiləsi zamanı müəyyən keyfiyyət çatışmazlıqları aşkar edilmişdir. Bundan əlavə, məlumatların ötürülməsi üzrə əvvəlki razılaşmalar bir neçə kiçik müqavilələrdən ibarət idi və statistik istehsalda inzibati məlumatlardan daha çox istifadə edilməsinə imkan yaratmaq üçün göstəricilərin sayının genişləndirilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir.

**2-ci komponent: Biznes statistikasının, o cümlədən kiçik və orta biznes üzrə statistikanın məzmunu və təşkili prosesləri yenilənmişdir**

İllik KOM hesabatı uzun müddətdir ki, istehsal olunurdu, lakin vizual və istifadəlilik, Aİ/İƏİT standartlarına uzlaşmanın artırılması, eləcə də istifadəçilərin yeni göstəricilərə olan tələbləri baxımından onun yenilənməsinə ehtiyac var idi. Biznes statistikası bütün istiqamətləri əhatə edən illik müayinələr əsasında hazırlanırdı. Bu isə həm əmək sərfiyyatı, həm də şirkətlərin cavab yükü baxımından ağır idi. İnzibati məlumatlardan geniş istifadə olunmurdu. Bununla belə, illik statistik müayinələrdə toplanılan məlumatların əksəriyyəti Dövlət Vergi Xidməti tərəfindən də toplanırdı.

**3-cü komponent: DSK, DVX və KOBİA əməkdaşlarının potensialı artırılmışdır**

DSK, DVX və KOBİA əməkdaşlarının potensial və bacarıqları yüksək səviyyədədir, lakin qurumlar daxilində müəyyən çatışmazlıqlar və təkmilləşdirilməli olan istiqamətlər müəyyən edilmişdir. Üçüncü komponent bu ehtiyacları qarşılamaq və yaxşılaşdırmaq üçün nəzərdə tutulmuşdu.

**Ümümi məqsədlər**

Layihənin ümumi məqsədi Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarət olmuşdur.

- Yeni KOM siyasətləri hazırlanmışdır
- KOM siyasətlərinin monitorinqi və qiymətləndirilməsi aparılmışdır
- KOM-ların ümumi fəaliyyətləri dəyərləndirilmişdir
- KOM göstəriciləri toplanmış, təhlil edilmiş və məlumatlar yayımlanmışdır
- KOM-ların ÜDM-də payı ölçülmüşdür

**Xüsusi məqsədlər**

Layihənin xüsusi məqsədi statistik biznes reyestrlərini təkmilləşdirmək və istifadəçilərin biznes statistikasına olan tələbatı nəzərə alınmaqla biznes statistikasının metodologiyasını Aİ standartlarına uyğunlaşdırmaq məqsədilə Dövlət Statistika Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin potensialının artırılmasından ibarət olmuşdur.

- Statistik Vahidlərin Dövlət Reyestri nəzərdən keçirilmiş və onun Şuranın (AİB) 1993-cü il tarixli 696/93 saylı Statistik vahidlərin Dövlət reyestri haqqında Əsasnaməsinə uyğun olduğu qənaətinə gəlinmişdir;
- Struktur biznes statistikası istehsalı Avropa statistik standartlarına uyğundur;
- Biznes/KOM statistik prosesi üçün statistik istehsalın keyfiyyəti yüksəldilmişdir;
- Biznes/KOM statistikasının istehsalında inzibati mənbədən istifadə artırılmışdır;
- Azərbaycanın biznes statistikası ilə bağlı statistik qanunvericiliyi, normaları, standartları və metodologiyaları nəzərdən keçirilmiş və Avropa İttifaqının qanunlarına uyğunlaşdırılması üçün tövsiyələr verilmişdir;

- DSK və Dövlət Vergi Xidmətinin digər tərəf müqabilləri ilə, eləcə də biznes/KOM statistikasının əsas istifadəçiləri ilə əməkdaşlığı genişləndirilmişdir;

**İcbari nəticələr**

**1-ci komponent:** İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında mövcud olan məlumat mübadiləsinin keyfiyyətinin yaxşılaşdırılması üçün konkret tədbirlər həyata keçirilmişdir

**1-ci nəticə:** Statistik Vahidlərin Dövlət Reyestrinin (SVDR) aparılması və yenilənməsi üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində tətbiq edilən keyfiyyətin idarə edilməsinə dair standartlar təkmilləşdirilmişdir

- SVDR-nin aparılması və yenilənməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin müvafiq məlumat bazalarına və ƏƏSMN-nin məlumat bazalarına uyğun olaraq məlumatların keyfiyyətinin idarə edilməsi standartlarının tətbiqi üçün yol xəritəsi və ya tədbirlər planı hazırlanaraq İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə təqdim edilmişdir.
- İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazaları tətbiq olunan standartlar vasitəsilə gücləndirilmişdir.
- İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və DSK-nin əməkdaşlarının potensialının artırılması təmin edilmişdir.

**2-ci nəticə:** SVDR-də statistik vahidlərə dair məlumatların strukturunun beynəlxalq tələblərə uyğun təkmilləşdirilməsi üçün nümunəvi model hazırlanmışdır

- SVDR-də statistik vahidlərə dair məlumatların strukturunun beynəlxalq tələblərə uyğun təkmilləşdirilməsi üçün nümunəvi model işlənib hazırlanmış, eləcə də düzəlişlər/təkliflərin əks olunduğu metodiki təlimat və yol xəritəsi ərsəyə gətirilmiş, təqdim edilmiş və paylanmışdır.
- SVDR-nin aparılması və yenilənməsi üçün inzibati məlumat mənbələrindən istifadə təkmilləşdirilmişdir.
- SVDR-dəki statistik vahidlərin Şuranın (AİB) 696/93 saylı Əsasnaməsinə uyğunlaşdırılması üçün tövsiyələr verilmişdir.
- Çatışmayan biznes demoqrafiyası göstəriciləri müəyyən edilmişdir.

**3-cü nəticə:** SVDR-in aparılmasında istifadə olunan proqram təminatının funksionallığı daha da genişləndirilmişdir

- SVDR-in aparılması və aktuallaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında səmərəli əməkdaşlıq üçün biznes prosesləri hesabatı hazırlanmış və təqdim edilmişdir.
- SVDR-in aparılmasında istifadə olunan proqram təminatının funksionallığının daha da genişləndirilməsi üçün məntiqi çərçivə işlənib hazırlanmış və təqdim edilmişdir.

**2-ci komponent:** Biznes statistikasının, o cümlədən KOM üzrə statistikanın məzmunu və təşkili prosesləri yenilənmişdir

**4-cü nəticə4:** Azərbaycanda biznes statistikası (BS) müasir tələblərə uyğun təkmilləşdirilmişdir;

- BS ilə bağlı metodiki sənədlər, o cümlədən çatışmayan dəyişənlərin siyahısı və onların nəşri ilə bağlı məsələlər müəyyən edilmiş və işlənilmişdir.
- Zəruri düzəlişlər/təkliflər daxil olmaqla biznes müayinələrinin metodoloji sənəd kimi yeni modelə inteqrasiyası üzrə yol xəritəsi hazırlanmış, qəbul edilmiş və paylanmışdır.
- Məlumatların daha qısa zamanda toplanılmasını təmin etmək məqsədilə məlumatların toplanılması prosesləri sadələşdirilmiş və standartlaşdırılmışdır.
- Müayinələrin keçirilməsi aspektləri ilə bağlı cavab yükünü və xərcləri azaltmaq üçün inzibati məlumatlardan istifadə mümkün qədər artırılmışdır.
- Redaktə və imputasiya, allokasiya və qiymətləndirmə proseslərinin dəyişənləri üçün metaməlumatlar standartlaşdırılmışdır.

**5-ci nəticə:** KOM üzrə Aİ/İƏİT standartlarına uyğun illik statistik nəşr yenilənmiş, təqdimatı keçirilmiş və yayımlanması təmin edilmişdir;

- KOM göstəriciləri siyahısı Aİ/İƏİT standartlarına uyğun olaraq genişləndirilmişdir.
- Mövcud məlumatların KOM statistikası məqsədləri üçün uyğunluğu (keyfiyyəti) (məsələn, inzibati konsepsiyaların məlumat tələblərinə nə dərəcədə uyğun olduğu, məlumatların vaxtında təminatı və keyfiyyəti, məlumatların təhlükəsizliyi və davamlılığı) müəyyən edilmişdir.
- İllik KOM statistikası hesabatının sxemi və tabulyasiya (cədvəllərin tərtib edilməsi) planı Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və KOBİA ilə birlikdə müəyyən edilmiş, müzakirə edilmiş və razılaşdırılmışdır.
- Statistik məlumatlar, qrafiklər, infoqrafiklər və şərhlərin daxil olduğu yekun KOM statistikası məcmuəsi DSK, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və KOBİA-nın əməkdaşları ilə sıx əməkdaşlıq edilərək hazırlanmış və təqdim edilmişdir.

**3-cü komponent:** Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin potensialı artırılmışdır

**6-cı nəticə:** Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması ilə bağlı potensialı artırılmışdır

- Biznes müayinələri üçün istifadə edilən seçmə modellərini nəzərdən keçirmək və qiymətləndirmək üçün təlim planı hazırlanmış və keçirilmişdir.
- KOM məlumatları və statistikası üçün təhlil və proqnozlaşdırma üsullarından istifadəyə dair təlim planı hazırlanmış və keçirilmişdir

- İngilis dilində keyfiyyətə dair hesabatlar daxil olmaqla statistik hesabatların hazırlanması, eləcə də qrafik və infoqrafiklər daxil olmaqla masaüstü nəşr üzrə təlim planı ərsəyə gətirilmiş və həyata keçirilmişdir
- Təlim planı milli təlim sistemlərinə uzlaşdırılmış, qəbul edilmiş və layihənin sonunadək icra edilmişdir.

## 2C - İCRA PROSESİ

**Layihənin nəzarətindən kənar baş verən hadisələr**

Tvinninq layihəsinin icra müddəti ərzində Benefisiar qurumların fəaliyyətinə mənfi təsir göstərəcək əhəmiyyətli dəyişikliklər baş verməmişdir.

Tvinninq layihəsi çərçivəsindəki tədbirlərdə, eləcə də idarəetmə görüşlərində iştirak edən hər üç benefisiar təşkilat tərəfindən Tvinninq layihəsinə dəstək göstərilmişdir.

Proqram İdarəetmə Ofisinin yerləşdiyi İqtisadiyyat Nazirliyi, eləcə də Aİ Nümayəndəliyi tərəfindən layihəyə bütün inzibati və maddi-texniki aspektlər üzrə dəstək təmin edilmişdir.

RTM-in 14 sentyabr 2021-ci il tarixində DVX-nin binasında keçirilən Texniki Tədbirdə iştirakı icra müddətinin yarısına yaxınlaşan layihənin distant iş metodologiyasından (layihənin başlanğıcından) üzbəüz və hibrid rejimə keçməsinə imkan verdi. Həmçinin RTM-in ölkədə olması layihənin daha sürətli və səmərəli həyata keçirilməsinə təkan verdi.

İnzibati Məlumatlar pilot layihə olaraq DVX tərəfindən DSK ekspertlərinin istifadəsi üçün təmin edilmişdir. Burada məqsəd İnzibati Məlumatların sorğu məlumatlarını əvəzləmək üçün nə dərəcədə uyğun olduğunu qiymətləndirmək olmuşdur. Təhlil nəticəsində əldə edilən ilkin nəticələr çox ümidverici olmuşdur. Yaxın gələcəkdə DVX və DSK arasında yeni məlumat mübadiləsi sazişi imzalandıqdan sonra bu təhlilin davam etdirilməsinə ehtiyac olacaqdır.

İnzibati məlumat təchizatçıları və istifadəçiləri üçün milli şuranın yaradılmasına dair seminar keçirilmişdir. Belə bir şura rəhbərlik səviyyəsində, mütəxəssislər səviyyəsində, eləcə də texniki səviyyədə mütəmadi qarşılıqlı ünsiyyətin aparılmasına imkan verəcəkdir.

**Yerinə yetirilmiş işlər  və Risklərin azaldılması**

- Azərbaycan hökuməti iqtisadiyyatda KOM-ların payının artırılması istiqamətində tutduğu ümumi islahatlar kursuna  sadiqdir.
  *yerinə yetirilmişdir*
  Azərbaycanda bütün ictimai səviyyələrdə layihəyə dəstək göstərilmişdir. Gözləntilərin əldə edilməsi üçün yaxşı ünsiyyət və layihədə davamlı irəliləyiş olmuşdur.
- DSK-nın və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin ali rəhbərliyi tərəfindən güclü dəstək və öhdəlik
  *yerinə yetirilmişdir*
  Gözləntilərin əldə edilməsi üçün bütün BÖ qurumlarının  rəhbərliyindən güclü dəstək və öhdəlik

- Tvinninq tərəfdaşlarından güclü dəstək və öhdəlik
  *yerinə yetirilmişdir*
  Gözləntilərin əldə edilməsi üçün bütün Tvinninq tərəfdaşlarından güclü dəstək və öhdəlik
- DSK və DVX-nin müvafiq işçi heyətinin prosesə cəlb olunması
  *yerinə yetirilmişdir*
  Bütün qurumlar arasında yaxşı əməkdaşlıq və prosesə cəlb olunma
- Bütün zəruri sənədlər və məlumatların əlçatan olması
  *yerinə yetirilmişdir*
  Bütün zəruri sənədlər və məlumatlar müraciət əsasında təmin edilmişdir
- Tərəfdaşlar arasında yaxşı əməkdaşlıq
  *Yerinə yetirilmişdir*
  Bütün qurumlar ümumi məqsədlərin əldə edilməsi üçün uğurlu əməkdaşlıq etdilər.

**Layihə çərçivəsində cərəyan edən hadisələr**

Bu hissədə ilkin plana edilən bütün dəyişikliklər təsvir olunmuşdur.

**Layihənin başlaması**

Layihə ilə bağlı bildiriş məktubu podratçı təşkilat (Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi) tərəfindən 13 aprel 2020-ci il tarixində Finlandiya Statistika İdarəsinin rəhbərlik etdiyi Konsorsiuma göndərilmişdir.

Layihənin icra müddətində benefisiar ölkədən (BÖ) layihə rəhbəri cənab Qasım Əliyev olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi - DSK).

Tvinninq üzrə Rezident Müşavir (TRM) cənab Ville-Matti Pilviö layihənin icrası məqsədilə 25 iyun 2020-ci il - 24 aprel 2022-ci il tarixlərində Finlandiya Statistika İdarəsi tərəfindən ezam olunmuşdur.

Layihə 29 sentyabr 2020-ci il tarixində keçirilmiş onlayn açılış mərasimi ilə başlanmışdır.

Tvinninq layihəsinin icrasına üzv dövlətdən (ÜD) ilkin olaraq layihə rəhbəri qismində xanım Mari Yla-Jarkko ( Finlandiya Statistika İdarəsi) rəhbərlik etmişdir. Podratçı təşkilat tərəfindən 03.03.2020-ci il tarixində təsdiq edilmiş 1 saylı Düzəlişə əsasən o, xanım Hannele Orjala (Finlandiya Statistika İdarəsi) ilə əvəz edilmiş və xanım Orjala layihənin sonundadək layihəyə rəhbərlik etmişdir.

Benefisiar ölkə (BÖ) və üzv dövlətlərdən (ÜD) aşağıda qeyd olunan şəxslər tərəfindən üç komponentə rəhbərlik olunmuşdur:
• 1-ci komponent"İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında mövcud olan məlumat mübadiləsinin keyfiyyətinin yaxşılaşdırılması üçün konkret tədbirlər həyata keçirilmişdir" - cənab Qasım Əliyev (DSK)/cənab Timo Laukkanen (Finlandiya Statistika İdarəsi);
• 2-ci komponent "Biznes statistikasının, o cümlədən KOM üzrə statistikanın məzmunu və təşkili prosesləri yenilənmişdir" - cənab Nuru Süleymanov (DSK)/xanım Saara Roine (Finlandiya Statistika İdarəsi);

• 3-cü komponent "Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin potensialı artırılmışdır" - cənab Qasım Əliyev (DSK)/cənab Jukka Hoffren (Finlandiya Statistika İdarəsi);

Layihəyə 4 ölkədən, Finlandiya, Litva, Hollandiya və Danimarkadan mütəxəssislər təmin edilmişdir.

Layihənin icrasının monitorinqi komponent rəhbərləri, iki layihə rəhbəri, həmçinin Dövlət Vergi Xidməti, KOBİA, Aİ Nümayəndəliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin nümayəndələrindən ibarət İdarəetmə Komitəsi (İK) tərəfindən həyata keçirilmişdir.

Layihənin icrasına Aİ Nümayəndəliyinin layihə meneceri xanım Ülviyyə Abdullayeva tərəfindən dəstək göstərilmişdir.

Layihənin İdarəetmə Komitəsinin iclasları layihənin rüblərinə uyğun olaraq hər 3 aydan bir keçirilmişdir. Layihənin sonunadək İdarəetmə Komitəsinin 7 iclası baş tutmuşdur.

İlkin olaraq layihənin 17 ay davam etməsi planlaşdırılırdı. İdarəetmə Komitəsinin 3-cü iclasında müəyyən edilmişdir ki, müəyyən fəaliyyətlərin daha səmərəli həyata keçirilməsi üçün əlavə vaxt tələb olunur. Layihənin uzadılması üçün əsaslar və imkanlar araşdırılmış və İdarəetmə Komitəsi tərəfindən Müqaviləyə Düzəlişin edilməsi vasitəsilə layihənin beş ay uzadılmasına dair təklif məqbul hesab edilmişdir. Təklif 22.06.2021-ci il tarixində podratçı təşkilat - Aİ Nümayəndəliyi tərəfindən təsdiqlənmiş və layihənin müddəti 22 ayadək uzadılmışdır.

Layihənin həyata keçirildiyi müddətdə layihə rəhbərlərinin əvəzlənməsi və iş planına bütün dəyişikliklər və yeniləmələr ÜD və BÖ layihə rəhbərləri ilə Aİ Nümayəndəliyinin layihə meneceri arasında koordinasiya əsasında əlavə məktublar və düzəlişlər (bax: Əlavə 4) vasitəsilə həyata keçirilmişdir.

Layihənin həyata keçirilməsinə mane ola biləcək hər hansı ciddi daxili problem olmamışdır. DVX və DSK arasında məlumat mübadiləsi müqaviləsinin layihə müddətində yenilənməməsi nəticəsində layihənin müəyyən fəaliyyətlərində yeni məlumatlarla iş aparmaq mümkün olmadı. Lakin gələcəkdə yeni məlumatlar əldə olunduqdan sonra həyata keçiriləcək tədbirləri nümayiş etdirmək məqsədilə şərti məlumatlardan istifadə etməklə bu çətinliyin öhdəsindən gəlindi.

2-ci komponentdə spesifik fəaliyyətlərin həyata keçirilməsi üçün ilkin şərtlər DVX tərəfindən pilot test məlumatlarının təmin edilməsi olmuşdur. Pilot məlumatların əldə edilməsində gecikmələr olmuş, lakin DVX rəhbərliyi ilə dialoq və görüşlər pilot məlumatların əldə edilməsinə yardım etmiş və fəaliyyətlər davam etdirilərək layihənin uzadılmış müddətində tamamlanmışdır.

## İcra Prosesi

Layihənin hər üç komponent üzrə icra prosesi üç mərhələdən ibarət olmuşdur: İlkin qiymətləndirmə və planlaşdırma (3 ay), planlaşdırılmış fəaliyyətlərin həyata keçirilməsi və Tvinninqdən sonrakı müddət/İrəliləyiş.




**Birinci mərhələdə** (adətən bir missiya) üzv dövlət və benefisiar ölkənin komponent rəhbərləri arasında spesifik komponent üzrə cari vəziyyət və xüsusi ehtiyaclar qiymətləndirilmişdir. Bu missiyalar çərçivəsində əsas diqqət icra mərhələsi üçün ətraflı iş planı və vaxt cədvəlinin hazırlanmasına və beləliklə də, komponentlərin məqsədləri və icra mərhələsində onlara necə nail olmaq barədə ümumi anlayışın formalaşdırılmasına yönəldilmişdir.

**İkinci**, yəni, icra mərhələsində Aİ təcrübələri təqdimatlar, ÜD ekspertləri və BÖ ekspertləri arasında praktiki müzakirələr və əməkdaşlıq vasitəsilə ötürülmüşdür. Müzakirələr DSK-da mövcud statistik təcrübənin təkmilləşdirilməsi üçün konkret mövzular üzrə praktiki həllərin tapılmasına yönəldilmişdir.

Hər bir missiya, eləcə də təlim səfərindən öncə texniki tapşırıqlar (ToR) və gündəlik layihəsi hazırlanmışdır. Missiyaların sonunda ÜD ekspertləri və BÖ iştirakçıları ilə birlikdə qısa məlumatlandırma sessiyası keçirilmişdir. Hər bir missiyadan qısa müddət sonra MS ekspertləri gələcək işlər üçün tövsiyələrlə missiya hesabatı təqdim etmişlər.

Ümumilikdə layihə çərçivəsində 31 qısamüddətli ekspert missiyası və 3 təlim səfəri olmaqla 34 fəaliyyət həyata keçirilmişdir (ətraflı məlumat üçün Əlavə 3, "İcra Cədvəlinə" baxın). Layihə müddətində idarəetmə komitəsinin yeddi iclası (2 iclas üzbəüz formatda) və 4 işıqlandırma tədbiri (3 tədbir üzbəüz formatda) keçirilmişdir.

Tvinninq müqaviləsi üzrə iş planına və edilən iki Düzəlişə uyğun olaraq bütün fəaliyyətlər üç aydan çox gecikmə olmadan həyata keçirilmişdir. Ümumilikdə, fəaliyyətlər nəzərdə tutulan rüblər üzrə həyata keçirilmişdir.

Covid-19 səfərlərə mənfi təsir göstərmiş və layihə 2021-ci ilin avqust ayının sonunadək onlayn fəaliyyətlərlə davam etdirilmişdir. 2021-ci ilin sentyabr ayından etibarən fəaliyyətlərin əksəriyyəti üzbəüz və ya zərurət olduqda, hibrid formatda (bəzi ekspertlər səfərlərdə iştirak etmiş, bəziləri isə iştirak edə bilməmişlər) həyata keçirilmişdir.

İƏİT və Aİ-nin mühüm sənədləri BÖ ilə birlikdə müəyyən edilmiş və Azərbaycan dilinə tərcümə edilmişdir.

**Üçüncü mərhələ** görülən işlərin qiymətləndirilməsi və sonrakı təkmilləşdirmə tədbirləri üçün tövsiyələrin hazırlanmasından ibarət olmuşdur. Bu mərhələdə strateji sənədlər və konsepsiya sənədləri benefisiar təşkilata təqdim edilmişdir.

**İş planına dəyişikliklər:**

**1-ci komponent:**

- Fəaliyyətin səmərəli həyata keçirilməsi üçün ilkin şərt olan yeni inzibati məlumatlar layihə müddətində DVX-dən əldə edilmədiyindən, biznes demoqrafiyası üzrə üçüncü gəaliyyət (2.2.C) həyata keçirilməmişdir.
- 1.4 (1.4.A) göstəricisi üzrə ikinci fəaliyyət 1.4.B saylı fəaliyyətlə əvəz edilmişdir. Yeni fəaliyyət BÖ ehtiyaclarına daha uyğun idi.
- 1.2.SV saylı təlim səfəri səyahət və Covid-19 ilə bağlı risklər nəzərə alınaraq Aİ Nümayəndəliyi tərəfindən verilmiş tövsiyələrə əsasən həyata keçirilməmişdir.

**2-ci komponent:**

- 5.4.C saylı fəaliyyət ilkin iş planına daxil edilmiş, lakin 5-ci nəticənin bütün məqsədləri bu Fəaliyyət həyata keçirilmədən belə əldə edildiyindən, bu fəaliyyət ləğv edilmişdir.

**3-cü komponent:**

- 6.2.SV və 6.3.SV saylı təlim səfərləri səyahət və Covid-19 ilə bağlı risklər nəzərə alınaraq Aİ Nümayəndəliyi tərəfindən verilmiş tövsiyələrə əsasən həyata keçirilməmişdir.

**Digər dəyişikliklər:**

- Covid-19 və iş yerində baş verən vəzifə dəyişiklikləri həm əsas layihə heyətinin, həm də qısamüddətli ekspertlərin bəzilərinin əvəzlənməsinə səbəb olmuşdur.
- ÜD layihə rəhbəri Finlandiya Statistika İdarəsindən kənar yeni vəzifəyə təyin olunduğundan əvəz olunmuşdur (Əlavə 1).
- Fərdi Covid-19 yoluxmaları, təşkilatların müəyyənləşdirdiyi, eləcə də milli səviyyədə qoyulmuş səyahət məhdudiyyətləri bəzi fəaliyyətlərə cəlb olunacaq ekspertlərlə bağlı planlara mənfi təsir göstərmişdir, lakin formalaşdırılmış güclü konsorsium bu məsələlərin öhdəsindən gəlmək üçün geniş ekspert seçiminə malik olmuşdur. İş planını yeniləyərək və ya əlavə məktublar hazırlayaraq bu çətinliklər inzibati qaydada həll edilmişdir.
- Covid-19 həmçinin bəzi fəaliyyətlərin planlaşdırılmasına da mənfi təsir göstərmişdir, lakin gecikmələr nəzərdə tutulan 3 aylıq həddi keçməmişdir.

**Kommunikasiya və işıqlandırma fəaliyyətləri**

Layihə komandası Aİ-nin işıqlandırma fəaliyyətləri üzrə qaydalarına ciddi şəkildə əməl etmişdir. Hazırlanan bütün sənəd və təqdimatlarda Aİ qurumlarının loqo və simvolları ən aydın şəkildə əks etdirilmişdir. Layihənin əvvəlində Aİ-nin maliyyə dəstəyini əks etdirən xüsusi təqdimat şablonu hazırlanmış və edəcəkləri təqdimatlarda istifadə üçün bütün ekspertlərə göndərilmişdir. Bütün kommunikasiya və işıqlandırma tədbirləri DIGITOOLS alətindən istifadə edərək Aİ Nümayəndəliyində qeydiyyata alınmış və qəbul edilmişdir.

Kommunikasiya alətləri

- ✓ **Layihənin veb səhifəsi: URL**: http://stat.fi/aztwinning
  Tvinninq Layihəsinin sənədlərinin saxlanıldığı əsas mənbə məlumatlara açıq çıxış və yaşıl ofis prinsiplərinə uyğun olaraq bütün qurumlar üçün əlçatandır və bütün yekunlaşdırılmış missiya hesabatları və layihə sənədləri orada yerləşdirilmişdir. Bu alət layihə çərçivəsində ərsəyə gətirilmiş önəmli məlumatların arxivi qismində çıxış edir.
- ✓ **Layihənin Facebook qrupu:** https://www.facebook.com/twin4AzStat2020

Məlumatlara açıq çıxış və yaşıl ofis prinsiplərinə uyğun olaraq layihənin cari məlumatlarını, xəbərlərini və fəaliyyətlərini yaymaq məqsədi ilə yaradılmışdır. Layihə müddətində 46 post yerləşdirilmişdir.

- ✓ **Elektron xəbər bülleteni:** Bütün layihə iştirakçılarına və digər maraqlı tərəflərə e-poçt vasitəsilə paylanan bülleten (açıq abunələr) rüblük olaraq nəşr edilmişdir. Bülletendə rüb ərzində həyata keçirilən bütün fəaliyyətlərin icmalı verilmiş və növbəti rüb üçün nəzərdə tutulan fəaliyyətlər təsvir edilmişdir. Bununla da real vaxt rejimində məlumat paylaşımları (Facebook) daha ənənəvi e-poçt xəbər xidməti (eləcə də kağız formatda çap edilmədən və ödənişsiz abunə/məlumatların açıqlığı prinsipi əsasında) ilə tamamlanmışdır.
- ✓ **Kommunikasiya platformaları:** Layihənin işçi heyəti yuxarıda qeyd olunan kommunikasiya platformalarını yeniləmək üçün Aİ Nümayəndəliyi və DSK ilə sıx əməkdaşlıq etmişdir. Əhəmiyyətli məsələlərə dair qısa xəbərlər nəzərdən keçirmək üçün hər iki təşkilata göndərilmişdir. Hər iki təşkilat həmin xəbərləri öz veb səhifələrində və ya Facebook səhifələrində yerləşdirir və əlavə məlumat üçün orijinal xəbər mənbəyinə keçid təmin edirdilər. Bu, əhatə dairəsini genişləndirmə və şəbəkələşmə baxımından layihəyə fayda vermişdir.

<u>Layihə çərçivəsində işıqlandırma tədbirləri</u>

- ✓ Onlayn açılış tədbiri (29 sentyabr 2020-ci il)
- ✓ 14.09.2021 tarixində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin binasında keçirilmiş TRM-in gəlişi ilə bağlı texniki görüş və layihənin cari gedişatına həsr olunmuş tədbir
- ✓ Hyatt Regency Bakı mehmanxanasında layihənin aralıq gedişatına həsr olunmuş tədbir (5 oktyabr 2021-ci il)
- ✓ Hilton mehmanxanasında  bağlanış mərasimi (11 aprel 2022-ci il)

<u>Nailiyyət göstəriciləri</u>

  - ✓ Onlayn açılış tədbirinin təşkili - tədbirdə 30 nəfərin iştirak etmişdir
  - ✓ Layihənin açılış tədbirinin press-relizi:
- ✓ Tədbirdən öncə və sonra Azərbaycanda yerli mətbuat nümayəndələrinə press-relizlərin paylanması.
- ✓ Layihənin bağlanış mərasimindən öncə layihənin yekun nəticələri və nailiyyətlərini əks etdirən press-reliz Azərbaycanın yerli mətbuat nümayəndələrinə paylanmışdır.
  - ✓ DVX-də TRM-in gəlişi ilə bağlı texniki görüş və layihənin cari gedişatına həsr olunmuş tədbirdə 20 nəfərin iştirakı.
  - ✓ Layihənin aralıq gedişatına həsr olunmuş tədbir - Hyatt Regency Bakı otelində keçirilmiş tədbirdə 40 nəfər iştirak etmişdir.
- ✓ Layihənin nəticələri ilə bağlı  press-reliz Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsinin rəsmi internet  səhifəsinə yerləşdirilmişdir.
- ✓ Bağlanış mərasimi - Hilton Bakı mehmanxanasında  keçirilmiş tədbirdə 100 nəfər iştirak etmişdir. Bağlanış mərasimi milli televiziya xəbərləri və müsahibələr vasitəsilə, o cümlədən milli qəzetlərin ön səhifələriində geniş işıqlandırılmışdır.

✓ Azərbaycanda Tvinninq layihəsinin bağlanış mərasiminin işıqlandırılması

1) https://www.realtv.az/news/az/106527/tvinninq-layihesi-basha-chatib-video
2) https://www.smb.gov.az/az/all-news/kobia-nin-da-istirak-etdiyi-tvinninq-layihesi-basa-catib
3) https://xalqqazeti.com/mobile/az/news/99657
4) https://yeniazerbaycan.com/yukle/pdf/2022_04_11_11_12.04.2022_sayt.pdf
5) https://apa.az/az/maliyye/statistika-komitesine-ve-vergi-xidmetine-destek-tvinninq-layihesibasa-catib-697207
6) https://azadmedia.az/cemiyyet/53640-tvinninq-layihsi-baa-catb.html
7) https://www.news.az/news/azerbaijan-eu-successfully-cooperate-in-field-of-statistics-officialsays
8) https://www.youtube.com/watch?v=1D-6jwoueQM&t=2s
9) https://www.youtube.com/watch?v=OjkRIDOQufU&t=45s
10) https://azertag.az/en/xeber/Azerbaijans_Prime_Minister_meets_with_heads_of_Finnish_and_Lithuanian_statistical_agencies-2089610
11) https://www.azerbaycan24.com/en/azerbaijani-premier-meets-finnish-lithuanian-statisticsheads/
12) https://report.az/en/foreign-politics/azerbaijani-premier-meets-finnish-lithuanian-statisticsheads/
13) https://apa.az/az/xarici-siyaset/bas-nazir-finlandiya-ve-litvanin-statistika-qurumlarininrehberleri-ile-gorusub-697255
14) https://az.trend.az/azerbaijan/politics/3580631.html

✓ Veb səhifə Finlandiya Statistika İdarəsi tərəfindən hostinq edilmişdir http://stat.fi/aztwinning.

✓ Veb səhifə icra müddətində mütəmadi olaraq yenilənmişdir.

✓ Facebook qrupu yaradılmış və icra müddətində hər tamamlanmış missiyaya dair xəbərlərin yerləşdirilməsi ilə mütəmadi olaraq yenilənmişdir https://www.facebook.com/twin4AzStat2020

✓ Layihənin icra müddətində hər üç aydan bir elektron bülleten hazırlanmış və göndərilmişdir: www.stat.fi/aztwinning#newsletters

- #1: 11-2020
- #2: 12:2020
- #3: 03:2021
- #4: 06.2021
- #5: 09.2021
- #6: 12.2021
- #7: 04.2022

✓ Liflet və broşürlər - materiallar hazırlanmış və hədəf qruplarına paylanmışdır.

- ✓ Təşviqat materialları - (Qovluqlar, sensorlu ekran qələmləri, USB yaddaş kartları, dəftərlər, adi qələmlər, karandaşlar, kağız çantalar və eko çantalar) hədəf qrup üzvlərinə və layihə çərçivəsində keçirilmiş tədbirlərin iştirakçılarına paylanmışdır.
- ✓ İştirak sertifikatları - təlim və seminar iştirakçılarına paylanmışdır
- ✓ Layihənin missiyaları və təlim səfərlərinin iştirakçıları hər bir missiyanın/fəaliyyətin son günündə qiymətləndirmə formaları doldurmuşlar. Daha sonra cavablar ÜD ekspertləri üçün ümumiləşdirilmişdir ( Əlavə 7-yə baxın).

## 2D - İCBARİ NƏTİCƏLƏRİN ƏLDƏ OLUNMASI

Layihənin icra müddətində bütün icbari nəticələr və meyarlar əldə olunmuşdur. Meyarlardan əlavə, digər nailiyyətlər də olmuşdur.

Tvinninq müqaviləsində layihə komponentləri və onların fəaliyyətləri üzrə müəyyən edildiyi kimi, layihənin icbari nəticələrinin, məhsullarının və meyarlarının əhatəli təhlili ilə Əlavə 2-də (Sadələşdirilmiş Məntiqi Çərçivə) tanış ola bilərsiniz.

**1-ci nəticə. Statistik Vahidlərin Dövlət Reyestrinin (SVDR) aparılması və aktuallaşdırılması üçün Dövlət Vergi Xidmətində tətbiq edilən keyfiyyətin idarə edilməsinə dair standartlar təkmilləşdirilmişdir**

Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında inzibati məlumatların mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi:

Bu layihə müddətində üç benefisiar qurumun mütəxəssisləri birlikdə işləyə bilmişlər. Onlar bir-birlərinin vəzifə və ehtiyacları ilə tanış olmuş, Tvinninq layihəsinin məqsədlərinə çatmaq və müəyyən edilmiş problemləri həll etmək üçün sıx əməkdaşlıq etmişlər. Bu əməkdaşlıq layihə tamamlandıqdan sonra da davam etdirilməlidir. Bunu layihədə yaradılması təklif olunan inzibati məlumat təchizatçıları və istifadəçilərinin milli şurası kimi platformalar vasitəsilə davam etdirmək olar.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumatların Dövlət Statistika Komitəsinə ötürülməsi və Statistik Vahidlərin Dövlət Reyestrinin aktuallaşdırılması ilə bağlı mövcud vəziyyət ekspertlər tərəfindən qiymətləndirilmiş, məlumat mübadiləsi standartları üzrə yeni tələblər müəyyən edilmiş, məlumatların yenilənməsi üsulları araşdırılmışdır. Məlumatların ötürülməsində texniki cəhətdən heç bir problem müəyyən edilməmişdir. Təsnifatların istifadəsi və onların yenilənməsi prosesi ilə bağlı müəyyən çətinliklər müşahidə edilmiş və təşkilatlar arasında yenilənmiş təsnifatların istifadəsini sinxronlaşdırmağa kömək edəcək üsullar təklif edilmişdir. Statistik Vahidlərin Dövlət Reyestrində istifadə olunan mülkiyyət növləri, o cümlədən ölkə kodları və əlaqə məlumatları İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasındakı müvafiq məlumatlara uyğunlaşdırılmış və boşluqlar aradan qaldırılmışdır.

DSK və DVX arasında məlumatların mübadiləsi üzrə yeni müqavilə:

Dövlət Statistika Komitəsi ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti arasında mövcud olan bir neçə məlumat mübadiləsi müqaviləsini vahid müqavilə ilə əvəzləyərək Statistik Vahidlərin Dövlət Reyestri məlumatlarının əhatə dairəsinin genişləndirilməsi məqsədilə yeni müqavilə layihəsi hazırlanmışdır. Bu yeni müqavilədə əsas diqqət daha geniş spektrli inzibati məlumatların mübadiləsi

üzrə ehtiyaclara yönəldilmişdir. Çox sayda yeni göstəricilərin əlavə edildiyi müqavilənin hazırlanması prosesi yekunlaşmaq üzrədir.

**2-ci əticə. SVDR-də statistik vahidlərə dair məlumatların strukturunun beynəlxalq tələblərə uyğun təkmilləşdirilməsi üçün nümunəvi model hazırlanmışdır**

Litva, Niderland, Danimarka və Finlandiyanın dövlət qurumları ilə əməkdaşlıq və inzibati məlumatların inteqrasiyası sahəsindəki təcrübələri ekspertlər tərəfindən nümayiş etdirilmiş, bu təcrübələr öyrənilmiş, bu sahədə bilik və bacarıqların artırılması məqsədilə Dövlət Statistika Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin mütəxəssislərinin iştirakı ilə onlayn seminarlar təşkil edilmiş, eyni zamanda, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən inzibati məlumatlar və Statistik Vahidlərin Dövlət Reyestri sahəsində həyata keçirilən işlər barədə məlumat verilmişdir.

Bu nəticə çərçivəsində diqqət iki önəmli məsələyə yönəldilmişdir:

1. Statistik vahidlər, müəssisə və müəssisə qrupları kimi anlayışlar Statistik Vahidlərin Dövlət Reyestrinə daxil edilmişdir. Statistik vahidlərin, müəssisə və müəssisə qruplarının profilləşdirilməsi üzrə metodiki məlumat ekspertlər tərəfindən təqdim edilmişdir. Layihə başa çatdıqdan sonra Dövlət Statistika Komitəsi tərəfindən müəssisə qruplarının tərtib edilməsi üzrə ilkin işlər aparılacaqdır.
2. Mütəxəssislər tərəfindən statistik biznes demoqrafiyasının əhatə dairəsi və hesablanması üzrə metodiki məlumat təqdim edilmiş, iştirakçı ölkələrin bu mövzular üzrə təcrübələri öyrənilmişdir. Dövlət Statistika Komitəsində biznes demoqrafiyası sahəsində öyrənilmiş təcrübələrin tətbiqi məqsədilə Statistik Vahidlərin Dövlət Reyestrinin məlumat bazasından müəssisələrin "doğum", "ölüm", "sağ qalma" göstəriciləri üzrə məlumatlar əldə edilmiş və müəssisələrin ilkin demoqrafik cədvəlləri hazırlanmışdır. DSK-da biznes demoqrafiyası göstəricilərinin tərtibi üzrə işlər davam etdiriləcəkdir.

**3-cü nəticə. SVDR-in aparılmasında istifadə olunan proqram təminatının funksionallığı daha da genişləndirilmişdir**

Statistik Biznes-Prosesin Ümumi Modelindən (SBPÜM) istifadə etməklə inzibati məlumat mübadiləsi və yeni məlumat mənbələrinin inteqrasiyasına sistemli yanaşma: Azərbaycanda dövlət orqanları arasında məlumat mübadiləsi ASAN xidmət vasitəsilə təmərküzləşdirilir. Bu, məlumatların ötürülməsinə sistemli yanaşma tətbiqi ilə nəticələnəcək və bunun DSK və DVX-ə daxil olan və bu qurumlardan göndərilən bütün məlumat axınlarına tətbiq olunması tövsiyə olunur.

Biznes Prosesinin Modelləşdirilməsi Notasiyasından (BPMN) istifadə edərək Biznes Proseslərinin Modelləşdirilməsi: Cari biznes proseslərinin sənədləşdirilməsi keyfiyyətin artırılması və cari proseslərin optimallaşdırılması istiqamətində atılan önəmli addımdır. DSK-da bu iş BPMN tərtibi üzrə vahid alətin işlənib hazırlanması ilə davam etdiriləcəkdir. DSK tərəfindən rəsmi statistikanın hazırlanmasında istifadə olunacaq inzibati məlumatların əhatə dairəsini müəyyən etmək və rəsmi statistikanın istehsalında istifadə etmək məqsədi ilə beynəlxalq mütəxəssislərlə birlikdə inzibati məlumat mənbələrinin biznes prosesi xəritəsi hazırlanmışdır.

İnzibati məlumat təchizatçıları və istifadəçiləri üçün milli şuranın yaradılmasına dair seminar: Seminarda belə bir şuranın yaradılması üçün Azərbaycanda həyata keçirilməli olan addımları

müəyyən etmək məqsədilə qrup işindən istifadə edilmişdir. İnzibati məlumat təchizatçıları və istifadəçiləri arasında bir neçə səviyyədə (o cümlədən idarəetmə, ekspert və texniki səviyyələrdə) mütəmadi qarşılıqlı əlaqələrin qurulması tövsiyə edilmişdir.

Statistik məlumatların istehsalı üçün R proqram təminatından istifadəyə dair seminar: Statistik məlumatların istehsalı üçün R proqram təminatından istifadə üzrə seminar layihədə əlavə fəaliyyət olaraq keçirilmişdir. Bu seminarda R proqram təminatına dair ümumi məlumat və onun istifadəsinə giriş təqdim edilmiş, iştirakçılar R proqram təminatından istifadə edərək öz ilk statistik nəşrlərini yaratmış və beləliklə seminarı bitirmişlər. Ümid edirik ki, layihədən sonra bu istiqamətdə təlimlər davam edəcək və proqram təminatının tətbiqi genişlənəcəkdir.

Helsinkiyə təlim səfəri: DSK, DVX və KOBİA-nın rəhbər heyətinin məlumatların idarəolunması üzrə potensialının artırılması: Çoxsaylı sualların verildiyi və açıq müzakirələrin aparıldığı məlumatların idarə edilməsi üzrə təlim səfəri son dərəcə interaktiv keçmişdir. Səfər çərçivəsində həmçinin Finlandiyanın Vergilər İdarəsində də görüş keçirilmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Finlandiya Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun layihəsinə dair müzakirələr aparılmışdır.

**4-cü nəticə. Azərbaycanda biznes statistikası (BS) müasir tələblərə uyğun təkmilləşdirilmişdir**

Aİ ölkələrinin struktur biznes statistikası, o cümlədən KOM statistikası sahəsində təcrübəsi öyrənilmişdir. DSK-da biznes statistikası üzrə görülən işlər və cari məlumat mənbələri müzakirə edilmişdir. DSK-da hesablanması aparılan biznes statistikası göstəricilərinin Aİ standartlarına uyğunluğu qiymətləndirilmişdir.

Biznes statistikasının istehsalı üçün inzibati məlumatlardan istifadənin genişləndirilməsi imkanları öyrənilmişdir. Vergi bəyannamələrində mövcud olan göstəricilər araşdırılmış və biznes statistikasında istifadə oluna biləcək göstəricilər müəyyən edilmişdir. Bu göstəricilər üzrə Dövlət Vergi Xidmətinin məlumatları rəsmi statistik məlumatlarla müqayisə edilmiş və nəticələr təhlil edilmişdir. DVX-dən əldə olunmuş pilot vergi məlumatları mövcud sorğu məlumatları ilə müqayisə edilmişdir. Güclü korrelyasiya müşahidə olunan nəticələr çox ümidverici olmuşdur. Tam məlumat dəsti əldə olunduqdan sonra ilkin nəticələrin bir daha yoxlanılması məqsədilə bu sınaqlar təkrarlanmalıdır. Əgər bu sınaqlar nəticəsində pilot məlumatlarda olduğu kimi korrelasiya müşahidə olunsa, DSK-nın biznes statistikası istehsalında inzibati məlumatların istifadəsini artırmaq üçün yaxşı əsasları olmuş olacaqdır.

Biznes statistikası üzrə statistik müayinələr vasitəsilə əldə edilən məlumatları mümkün dərəcədə inzibati məlumatlarla əvəzləyərək sorğu məlumatlarının həcminin azaldılması, toplanmış məlumatların yoxlanılması, aşkarlanan xəta və çatışmazlıqların redaktə edilməsi imkanları nəzərdən keçirilmiş və gələcək işlər üçün tövsiyələr verilmişdir.

Biznes statistikasının istehsalında istifadə olunan sorğu vərəqləri və proqram təminatı nəzərdən keçirilmiş, bu sahədə seçmə müayinələrin tətbiqinin genişləndirilməsi və istehsal proseslərinin standartlaşdırılması məsələləri müzakirə edilmişdir.

Bütün maraqlı tərəflər və məlumat mənbələrini nəzərə almaqla SBS istehsal prosesinin standart proses sxemi hazırlanmışdır.

Həmçinin proqram təminatının təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir. Struktur biznes statistikasında çatışmayan məlumatlar üzrə vahidlərin imputasiyasına imkan verən kod yaradılmışdır. Bu, R proqram təminatından istifadə edən ilk konkret alətdir. Bu kod həmçinin imputasiya nəticələrini yoxlamaq üçün nəticələrin aqqreqat formada təsdiqlənməsinə və zəruri olduqda, əlavə manual düzəlişlər etməyə imkan verir.

**5-ci nəticə. KOM üzrə Aİ/İƏİT standartlarına uyğun illik statistik hesabat yenilənmiş, təqdimatı keçirilmiş və yayımlanması təmin edilmişdir**

KOM statistikası sahəsində Aİ ölkələrinin təcrübəsi və məcmuələri öyrənilmişdir. DSK tərəfindən dərc edilən müvafiq məcmuələrin yeni məlumatlarla zənginləşdirilməsi məqsədilə əlavə məlumat mənbələri araşdırılmışdır. Bu məcmuələrə əlavə olunacaq göstəricilər siyahısı müəyyən edilmişdir. Mikro, kiçik və orta sahibkarlıq statistikası üzrə məcmuənin daha da yaxşılaşdırılması üçün tövsiyələr verilmişdir. Tövsiyələr nəzərə alınaraq "Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq" illik statistik məcmuəsinin yenilənmiş versiyası nəşr edilmişdir.

2021-ci il üzrə yenilənmiş illik KOM hesabatı bu layihə müddətində əldə edilmiş konkret nailiyyət kimi göstərilə bilər. Məcmuə 2022-ci ilin yanvar ayında DSK-nın veb səhifəsində yerləşdirilmişdir www.stat.gov.az/source/entrepreneurship/?lang=en. İstifadəçi ehtiyacları və KOM göstəriciləri üzrə Aİ/İƏİT tərifləri (standartları) nəzərə alınmışdır**.** Təkmilləşdirmə istiqamətində aparılan əsas işlərə aşağıdakılar daxildir: 18 yeni göstərici, vizuallaşdırma, o cümlədən 28 yeni qrafik, 26 yeni cədvəl**,** dinamika sıraları**,** göstəricilərin metodoloji izahı, analitik mətn və keyfiyyətə dair məlumat**.** Bu, DSK əməkdaşları tərəfindən görülən böyük iş olmuş və hazır məhsul istifadəçilər tərəfindən yaxşı qarşılanmışdır.

Bundan əlavə, istifadəçi ehtiyaclarını daha yaxşı qarşılamaq üçün vəd edilən əlavə kiçik təkmilləşdirmələr üzrə səylər, eləcə də yeni göstəricilər yarandıqca, bu istiqamətdə iş gələcəkdə də davam etdiriləcəkdir.

**6-cı nəticə. DSK, DVX və KOBİA əməkdaşlarının biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması ilə bağlı potensialı artırılmışdır**

Onlayn sorğu vasitəsilə iştirakçıların ehtiyaclarına uyğunlaşdırıldıqdan sonra üç təlim fəaliyyəti həyata keçirilmişdir:

- Biznes müayinələri üçün istifadə edilən seçmə nümunələrinin nəzərdən keçirilməsi və qiymətləndirilməsi
- KOM məlumatları və statistikası üçün təhlil və proqnozlaşdırma üsullarından istifadə
- Statistik hesabatların, o cümlədən ingilis dilində keyfiyyətə dair hesabatların hazırlanması və əsas diqqətin masaüstü nəşriyyata yetirilməsi

Biznes müayinələri üçün istifadə edilən seçmə nümunələri üzrə Litvaya bir təlim səfəri həyata keçirilmişdir.

Bu nəticə çərçivəsində statistik məlumatların tərtibatı prosesləri, məlumat axınları və məlumatların yayılması üzrə faydalı dialoq, eləcə də fəaliyyətlər zamanı qrup formatında fəal qarşılıqlı ünsiyyət və müzakirələr aparılmışdır.

**İş planı göstəriciləri ilə müqayisədə qiymətləndirilən nəticələr**

Nəticələrin hər birində iş planında razılaşdırılmış göstəricilərə əsasən qiymətləndirilən nəticələr əldə edilmişdir. Bu uğurun əsas səbəbi Tvinninq layihəsinin planlaşdırma mərhələsində əsas hədəflərin düzgün müəyyənləşdirilməsi və icra mərhələsində isə onların müvəffəqiyyətlə əldə olunması ilə bağlıdır.

İş planında razılaşdırılmış göstəricilərə əsasən qiymətləndirilən nəticələrin əldə edilməsi üzrə tam təhlil Əlavə 1-də verilmişdir.

İlkin iş planına edilən dəyişikliklər çevik iş planları vasitəsilə həyata keçirilmiş və aşağıdakıları əhatə etmişdir:

- 2.2.B saylı fəalliyyət həyata keçirildikdən sonra 2.2.C saylı fəaliyyətin təxirə salınmasına dair razılıq əldə olunmuşdur. Belə ki, biznes demoqrafiyası (BD) üzrə sonrakı işin yalnız DSK tərəfindən əvvəlki fəaliyyətlərdə öyrənilmiş təcrübələrə əsaslanaraq BD-nin ilk əhatəli tərtibatını tamamladıqdan sonra aparılması tövsiyə edilmişdir.
- 1.4.A saylı fəaliyyət İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin kadr potensialının gücləndirilməsi üçün planlaşdırılmışdı, lakin daha sonra bu fəaliyyət 1.4.B saylı "R proqram təminatından statistik məlumatların istehsalı üçün istifadə" fəaliyyəti ilə əvəz edilmişdir.
- 5 saylı nəticə çərçivəsində qarşıya qoyulmuş bütün məqsədlərə əvvəlki fəaliyyətlərdə nail olunduğundan 5.4.C saylı fəaliyyətə zərurət qalmamış və ləğv edilmişdir.
- Təlim səfərləri yanvar ayında dayandırıldı. Bu qərar əvvəlki tədris səfərinin PZR test nəticələri müsbət çıxan 6 iştirakçısının Bakıya planlaşdırıldığı tarixdə qayıda bilməməsindən sonra verilmişdir. “Omicron” üzv dövlətlərdə geniş yayılmışdı və sağlamlıq riskləri nəzərə alınaraq, Aİ tərəfindən növbəti təlim səfərlərinin təxirə salınması tövsiyə edildi. İlkin iş planında dörd təlim səfəri nəzərdə tutulmuşdu. Tvinninq layihəsinin birinci ili distant rejimdə həyata keçirildiyindən büdcə profisiti yaranmış və təlim səfərlərinin sayını altıya çatdırmaq mümkün olmuşdur. Təxirə salınan bu fəaliyyətlərin məzmununun müəyyən hissəsi üzbəüz təlim fəaliyyətləri zamanı əhatə oluna bilərdi, lakin MSİ-lərə səfər və üzbəüz ünsiyyət mümkün olmamışdır. Həmçinin, faktiki olaraq təlim səfərləri yalnız iki milli statistika idarəsində həyata keçirilmişdir. Həmin dövrdə Danimarka və Niderlandın statistika qurumlarına səfərlər mümkün olmamışdır.

Sadələşdirilmiş məntiqi çərçivənin daha müfəssəl təhlili yekun hesabatın 2 saylı əlavəsində əks olunmuşdur.

**Digər nəticələr**

Qurumlararası əməkdaşlıq

Layihə çərçivəsində həyata keçirilən bütün tədbirlərdə benefisiar ölkənin hər üç qurumunun nümayəndələri iştirak etmişdir. Bu, qurumlar arasında ekspert səviyyəsində qarşılıqlı əlaqə yaratmağa imkan vermiş və qeyd edilmişdir ki, layihə onların qarşılıqlı əlaqə tərzində dəyişikliyə səbəb olmuşdur. Ümumi problemlərin həlli istiqamətində birlikdə iş aparakən hər bir qurum digərinin işi ilə tanış olmuş və aralarında qarşılıqlı asılılıq olduğunu aydın başa düşmüşlər. Layihənin sonunda

mehriban əməkdaşlıq və qarşılıqlı ünsiyyət mədəniyyəti yaranmış və bu, ümumi məqsədlərə çatmaq üçün bir-birindən kömək və məsləhət istəmək istiqamətində olan əngəlləri azaltmışdır.

Sahə ekspertləri tərəfindən R proqram təminatı kitabxanalarının təhlil və hesabatlılıqda istifadə üçün öyrənilməsi

Bu layihə çərçivəsində statistik kitabxanalardan istifadəyə əsaslanan kompüter proqramlaşdırmasını və sahə biliklərini bir araya gətirmək üçün ilk addımlar atılmışdır. Statistika üzrə işçi heyəti öz sahələrinin peşəkarıdır, lakin bütün proqram təminatı kənardan sifariş edilir. Kompüter biliyi olan statistika mütəxəssisləri sadə R kitabxanalarından istifadə edərək proqram təminatı satın almadan və ya kənardan xidmətlər cəlb etmədən, R proqram təminatında müvafiq kodları işə salaraq hesablama tapşırıqları üzrə nəticələri sürətli şəkildə əldə edə bilərlər. R-Proqramlaşdırma seminarında (1.4.B saylı fəaliyyət) təxminən 30 statistik mütəxəssisə R proqramının statistik istehsal üçün təklif etdiyi imkanlar haqqında ümumi məlumat verilmişdir. Bundan əlavə, iştirakçılar seminar müddətində əldə etdikləri bilikləri öz tapşırıqlarını yerinə yetirmək üçün tətbiq etməli idilər. Bu, R proqram təminatından istifadə edərək vahidlər haqqında məlumat əldə etmək, onları işləmək, aqqreqasiya etmək və word, pdf və html formatında qrafiklər, mətn və cədvəllərin əks olunduğu statistik hesabat hazırlamaq üzrə nümunəvi statistik tapşırıq idi. Ümid olunur ki, əməkdaşlar statistik məlumatların istehsalı məqsədilə R proqram təminatını mənimsəməyi və DSK isə bu təşəbbüsü dəstəkləməyə davam edəcəkdir.

## 2E - TƏSİR

### Ümumi məqsəd və layihənin hədəfi

Tvinninq layihəsinin hədəf və ümumi məqsədi əldə olunmuşdur. Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək Tvinninq layihəsi uğurla həyata keçirilmişdir. Tvinninq müqaviləsində müəyyən edilmiş boşluqlar aradan qaldırılmışdır.

Layihə çərçivəsində tətbiq olunan yanaşmada fəaliyyətdən fəaliyətə irəliləyişə daim diqqət yetirilmiş və bu, layihənin nəticələrinə nail olmağa kömək etmişdir. Benefisiar qurumların əməkdaşları layihənin icra müddətində icbari nəticələrin əldə olunması üzrə aparılan işə cəlb olunmuş və səy göstərmişdir.

Layihənin icrası müddətində ÜD ekspertləri və BÖ mütəxəssisləri tapşırıqları yerinə yetirmək üçün sıx əməkdaşlıq etmişlər. Tvinninq layihəsinin nəticəsi olaraq benefisiar qurumlar öz işçilərinin potensialını artırmış və statistik məlumatların tərtibi və yayımlanması üzrə Aİ standartlarına uyğunlaşma istiqamətində əlavə addımlar atmışlar.

Layihənin nəticələri bir neçə istiqamətdə əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur:

**Layihənin ümumi məqsədi:** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarət olmuşdur.

**İndikatorlar:**

- Yeni KOM siyasətləri hazırlanmışdır
- KOM siyasətlərinin monitorinqi və qiymətləndirilməsi aparılmışdır
- KOM-ların ümumi fəaliyyətləri dəyərləndirilmişdir
- KOM indikatorları toplanmış, təhlil edilmiş və məlumatlar paylanmışdır
- KOM-ların ÜDM-də payı ölçülmüşdür

2021-ci il üzrə yenilənmiş illik KOM hesabatı bu layihə müddətində əldə edilmiş konkret nailiyyət kimi göstərilə bilər. Məcmuə DSK-nın veb səhifəsində yerləşdirilmişdir www.stat.gov.az/source/entrepreneurship/?lang=en. Yeni tərtib edilən məcmuədə istifadəçi ehtiyacları və Aİ/İƏİT-in KOB biznes indikatorları tərifləri nəzərə alınmışdır və bura aşağıdakılar daxildir: 20-yə yaxın yeni indikator, vizuallaşdırmalar, vaxt sıraları, analitik mətn və keyfiyyətə dair məlumatlar. Bu, DSK əməkdaşları tərəfindən görülən böyük iş idi və hazır məhsul istifadəçilər tərəfindən yaxşı qarşılanmışdır. Bundan əlavə, istifadəçi ehtiyaclarını daha yaxşı qarşılamaq üçün vəd edilən əlavə kiçik təkmilləşdirmələr üzrə səylər, eləcə də yeni indikatorlar yarandıqca, bu istiqamətdə iş gələcəkdə də davam etdiriləcək.

KOM-ların ümumi fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi üçün yüksək keyfiyyətli statistik məlumatların toplanılması KOM-ların inkişafı və çiçəklənməsini dəstəkləmək üçün həyata keçirilən milli KOM siyasətinə daha çox fayda verəcək, beləliklə, Azərbaycanın ÜDM-nə birbaşa təsir göstərərək KOM-ların ölkə iqtisadiyyatındakı nisbi payının artmasına xidmət edəcəkdir.

Statistik məlumatların toplanması və biznes statistikasının istehsalı və yayımlanması sahəsində Aİ-nin qabaqcıl təcrübələrinin təqdimatı, eləcə də DSK metodologiyasının daha da təkmilləşdirilməsi üçün verilmiş tövsiyələr yerli mütəxəssislərin potensialının artırılmasına xidmət edəcəkdir.

Statistik istehsalda R proqram təminatının tətbiqi DSK-ya proseslərini genişləndirmək və uyğunlaşdırmaq üçün çoxsaylı yeni vasitələr təmin edəcəkdir. Belə alətlərdən biri 5-ci nəticə çərçivəsində SBS-də çatışmayan vahidlərin vahid səviyyəli imputasiyasının aparılması üçün təqdim olunan həll vasitəsi olmuşdur.

**Gözlənilməz (müsbət) nəticələr:**

Statistik şəbəkələşmə: Bu layihədə üç benefisiar qurumun - DVX (İnzibati Məlumat təminatçısı), DSK (statistik məlumat istehsalçısı) və KOBİA (statistik məlumatların istifadəçisi) iştirak etməsi onlar arasında açıq və əməkdaşlıq mühitinin formalaşmasına imkan vermişdir. Onlar qarşıda duran məsələləri həll etmək və ümumi məqsədlərə nail olmaq üçün rəhbərlik, mütəxəssis və texniki səviyyələrdə əməkdaşlıq etmişlər. İnzibati məlumat təchizatçıları və istifadəçilərinin milli şurasının yaradılması məsələlərinə həsr olunan seminarda bu əməkdaşlığın genişləndirilməsi və yaxşılaşdırılması istiqamətində mümkün imkanlar tapılmışdır.

Ekspertlər səviyyəsində qarşılıqlı fəaliyyətə maneələr: Bu mühüm qarşılıqlı fəaliyyətin gələcəkdə də davam etdiriləcəyinə ümid olunur.

## 2F - SONRAKI TƏDBİRLƏR VƏ DAYANIQLILIQ

Dayanıqlılığın ən mühüm təminatı DSK rəhbərliyinin bu prosesə yaxından cəlb olunmasıdır. Bunu layihənin bütün icra prosesində müşahidə etmək mümkün idi. Aİ-nin qəbul olunmuş təcrübələrinin

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin gündəlik fəaliyyətində tətbiq edilməsi məqsədilə inzibati potensialın gücləndirilməsi istiqamətində müvafiq təşkilati tədbirlər görülmüşdür. Layihənin icra müddətində ciddi kadr dəyişikliyi müşahidə edilməmişdir. Layihənin əhatə etdiyi sahələrin təkmilləşdirilməsinin etdirilməsinə mənfi təsir göstərə biləcək heç bir maneə müəyyən edilməmişdir.

**DSK üçün yaradılmış əlavə dəyər**

Tvinninq layihəsində müsbət əməkaşlıq münasibətləri olmuşdur. İş mühiti və peşəkar əlaqələrin qurulması layihənin tamamlanmasından sonra Finlandiya, Litva, Niderland, Danimarka və Azərbaycanın statistika qurumları arasında davamlı əməkdaşlığın yaradılmasına töhfə vermişdir.

Sonrakı tədbirlər:

- DVX və DSK arasında yeni məlumat mübadiləsi müqaviləsinin yekunlaşdırılması
- Müəssisə qrupları: bu istiqamətdə aparılan işin ilk mərhələsi tamamlanmışdır
- Biznes demoqrafiyası: bu istiqamətdə aparılan işin ilk mərhələsi tamamlanmışdır
- DSK-də mövcud bütün proseslər üçün proses diaqramları (proqram təminatı əlçatan olduqdan sonra)
- Statistik istehsal proseslərinin standartlaşdırılması
- Statistik müayinələrin sadələşdirilməsi və cavab yükünün azaldılması məqsədilə inzibati məlumatlardan istifadənin artırılması
- Xarici ticarət üzrə inzibati məlumatlara çıxışla bağlı Dövlət Gömrük Komitəsi ilə danışıqların aparılması və əldə olunan məlumatların biznes statistikası və KOM statistikasına daxil edilməsi

İM təchizatçıları və İM istifadəçiləri arasında müqavilələrin imzalanması prosesi çox rəsmi xarakter daşıyır. Təklif edirik ki, gələcək müqavilələr yüksək səviyyədə imzalansın, lakin müqavilənin spesifik məzmunu daha çevik olsun və ekspertlər səviyyəsində müəyyənləşdirilsin. Bu, inzibati məlumatların mübadiləsi müqavilələrinin yenilənməsi üçün zəruri olan rəsmi prosesi tam təkrarlamadan fərdi göstəricilər üzrə lazimi dəyişikliklərin uyğunlaşdırılması istiqamətində nəzərəçarpacaq çevikliyə imkan verəcəkdir. Əksər üzv dövlətlərdə belə spesifik dəyişikliklərin aparılması məlumat mübadiləsi müqavilələrinin yenilənməsi üçün zəruri olan rəsmi prosesi təkrarlamadan qurumlar arasında ekspert səviyyəsində koordinasiya edilir.

## 2G - YEKUN NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR

**Ümumi özünü-qiymətləndirmə**

Ümumi yekun nəticə ondan ibarətdir ki, Tvinninq layihəsi pandemiya və müharibə də daxil olmaqla çoxsaylı kənar təhdidlərə baxmayaraq uğurla həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin əməkdaşları biznes statistikası və inzibati məlumatların ötürülməsi sahəsində mövcud Aİ standartları ilə tanış olmuşlar. Layihə fəaliyyətləri nəticəsində əldə olunan uğurun uzunmüddətli dayanıqlılığını təmin etmək üçün yeni standartların fəal şəkildə tətbiq edilməsi önəmlidir. Bu baxımdan DSK-də layihənin icrası müddətində əhəmiyyətli irəliləyiş əldə edilmişdir. ÜD ekspertlərinin rəyi adətən DSK rəhbərliyi səviyyəsində qərarların qəbulu üçün əsas olmuşdur. ÜD ekspertləri ilə aparılan müzakirələr əsasında verilən tövsiyələr DSK-ə tətbiq edilməsi üçün konsepsiyalara çevrilmiş və sonradan yüksək rəhbərlik tərəfindən təsdiq edilmişdir.

Beləliklə, ÜD ekspertləri tərəfindən verilən töhfələrin DSK-nın spesifik iş prinsiplərinə uyğunlaşdırılması təmin edilmişdir. Yüksək rəhbərliyin razılığını və dəstəyini təmin etməklə, DSK-dan olan həmkarlarımız Aİ standartlarının tətbiqi ilə bağlı metodologiyada dəyişiklikləri tez bir zamanda həyata keçirə bildilər.

Ümumilikdə, Tvinninq müqaviləsində müəyyən edilmiş gözləntilər və məqsədlər tam əldə olunmuşdur.

**Götürülən örnəklər**

- Bütün Tvinninq layihələrində olduğu kimi müvəffəqiyyət benefisiarın layihəyə sahiblənməsindən çox asılıdır. Bunu bu Tvinninq layihəsinə da aid etmək olar.
- Tvinninq layihəsini distant formatda başlamaq mümkündür – lakin bu, asan deyil və müəyyən məhdudiyyətlərdə özünü büruzə verir.
- Üzbəüz görüşlər fəaliyyətlərin həyata keçirilməsinə müsbət təsir göstərmişdir.
- İştirakçı tərəflər arasındakı əməkdaşlıq uğur üçün möhkəm zəmin yaradır.
- Bütün iştirakçı tərəflərin çevikliyi layihə fəaliyyətlərinin rəvan həyata keçirilməsi üçün çox önəmlidir.
- Layihənin vaxtında həyata keçirilməsi üçün BÖ-də fəaliyyət göstərən Aİ Nümayəndəliyi ilə əməkdaşlıq zəruri və önəmlidir.
- Çevik iş planları Tvinninq layihəsinin icra müddətində zəruri dəyişikliklərin aparılmasına imkan verməsi çox uğurlu təcrübə olmuşdur.
- Layihəyə çoxlu benefisiar qurumun cəlb olunması kommunikasiya və koordinasiyanı çətinləşdirə bilər. Həmçinin bu halda daha çox koordinasiya və məlumat mübadiləsi tələb olunur, lakin müəyyən hallarda zəruri işlərin icrası baxımından səmərəli bir modeldir.
- Ümumiyyətlə, bu layihənin benefisiar qurumları statistika üzrə Aİ təcrübələrinə və digər müvafiq beynəlxalq standartlara uyğunlaşmanı davam etdirməlidirlər. Bu və əvvəlki Tvinninq layihəsinin müsbət nəticələrinə əsaslanaraq, həm ÜD, həm də BÖ tərəfindən Azərbaycanda Tvinninq alətindən yararlanmağa davam etmək tövsiyə edilir. Növbəti Tvinninq layihələri statistika idarəsinə Avropa Statistika Sistemi ilə əlaqələri və dialoqu davam etdirməyə imkan verəcəkdir.

**Tvinninq layihəsinin əhatə etdiyi sahələr üzrə gələcəkdə görülməsi zəruri olan tədbirlərə dair tövsiyələr.**

- Azərbaycanda müəssisə qruplarının yaradılması üzrə işin ilk mərhələsi DSK tərəfindən yeni inzibati məlumatlar əldə olunan kimi həyata keçirilməlidir. DVX-də mövcud olan "tabeçilik" göstəricilərinin uyğunluğu nəzərdən keçirilməlidir.
- Azərbaycanda biznes demoqrafiyası statistikası üzrə işin ilk mərhələsi DVX məlumatları əldə olunan kimi həyata keçirilməlidir.
- Dövlət Gömrük Komitəsinin idxal və ixrac məlumatlarına çıxışı müzakirə olunmalıdır
  - Həmçinin idxal və ixrac üzrə aqreqat ticarət dəyərləri regionlar üzrə (məsələn, Aİ, MDB və s., eləcə də ölkə səviyyəsində) təsnifləşdirilməlidir.
  - Bu, daha əvvəl həyata keçirilmədiyi təqdirdə, gələcək Tvinninq layihəsində bir sıra benefisiar qurumun cəlb edildiyi bir komponent ola bilər.
- Keyfiyyət təminatı, eləcə də metodologiya və prosedurların standartlaşdırılması üçün DSK-nın bütün proseslərində prosesin modelləşdirilməsi həyata keçirilməlidir.

- Struktur Biznes Statistikasında inzibati məlumatlardan istifadənin artırılması nəzərdən keçirilməlidir. Bu,
    - müəssisələrin yükünün azaldılmasına və
    - sorğu anketlərinin kiçildilməsi vasitəsilə resurslara qənaət edilməsinə imkan verəcək.
- DSK hesabat təqdim edən vahidlərin yükünə dair illik hesablamalar aparmalıdır. Statistik istehsalda inzibati məlumatlardan istifadə artırdıqca, müəssisələrin cavab yükünün azaldılması istiqamətində əldə edilən irəliləyişi izləməyə kömək edəcək ölçülə bilən göstəricini təmin edəcəkdir.
- Statistik məlumatların istehsalında R proqram təminatının potensialından istifadə araşdırılmalıdır.
- İnzibati məlumatlar üzrə yeni müqavilələrin imzalanması, habelə mövcud müqavilələrə düzəlişlərin, o cümlədən kiçik əlavələrin və dəyişikliklərin edilməsi üçün inzibati proseslərin sadələşdirilməsi yolları nəzərdən keçirilməklə proses asanlaşdırılmalı və sürətləndirilməlidir.
- Azərbaycanda inzibati məlumat təchizatçıları və istifadəçiləri arasında qarşılıqlı əlaqə və əməkdaşlığa imkan verən müəyyən mexanizmlər yaradılmalıdır. Bu, üç səviyyəli bir mexanizm olmalıdır (idarəetmə, sahə ekspertləri və texniki səviyyəli görüşlər). İnzibati məlumat təchizatçıları və istifadəçilərinin milli şurasının yaradılması buna nail olmaq üçün bir imkan ola bilər.

## 2H - ƏLAVƏLƏR

Bu hesabata əlavələrin siyahısı (ayrıca fayl kimi əlavə olunur):

**Əlavə 1: Əldə olunan icbari nəticələrin icmalı**

**Əlavə 2: Sadələşdirilmiş məntiqi çərçivə (2021-ci il aprel - 2022-ci ilin aprel tarixlərində nəzərdən keçirilmişdir)**

**Əlavə 3: İcra cədvəli**

**Əlavə 4: Əlavələr və məktublar**

**Əlavə 5: Xərclər**

**Əlavə 6: Xərclərin yoxlanılması**

**Əlavə 7: Qiymətləndirmə**

**Əlavə 8: Vahid və gender üzrə bölgü**

# Bölmə 3: Xərclər

Finlandiya Statistika İdarəsi tərəfindən layihənin 1-ci rübündə 687 907,33 € məbləğində avans alınmışdır. Bundan əlavə öncədən maliyyələşdirmə ödənişləri həyata keçirilməmişdir. Layihənin sonunadək olan ümumi xərclər 885,266,43 € (ümumi büdcənin 88,75%-i) təşkil etmişdir.

Tvinninq müqaviləsindəki hesablamalarla müqayisədə xərclərin aşağı olmasının əsas səbəbləri aşağıdakılardan ibarətdir:

- Covid-19 və səfərlərin məhdudlaşdırılması büdcəyə müsbət təsir göstərmişdir (ekspert missiyaları daha ucuz başa gəlmişdir).
- Səfər məhdudiyyətləri planlaşdırılan təlim səfərlərinin sayının azaldılması ilə nəticələnmişdir.
- ÜD layihə rəhbərinin missiyaları adətən digər fəaliyyətlərin keçirildiyi eyni tarixlərə planlaşdırılmışdır.

Layihə çərçicəsində büdcə başlıqları və alt başlıqlar üzrə ayrılmış maliyyə vəsaitlərinin və bütün büdcə başlıqları çərçivəsində bütün fəaliyyətlər üzrə tam xərclər **"Xərclər" adlı 5-ci Əlavə**də verilmişdir.

Layihə 30 may – 10 iyun 2022-ci il tarixləri arasında BDO Audiator Oy şirkəti tərəfindən audit edilmişdir. Xərclərin yoxlanılması üzrə hesabat **"Xərclərin yoxlanılması" adlı 6-cı Əlavədə** təqdim olunmuşdur

**Üzv dövlət adından**

Xanım Hannele Orjala, Finlandiya Statistika İdarəsinin Sosial statistika şöbəsinin müdiri

İmza: ___________________________

Tarix: 09.06.2022

**Benefisiar ölkə adından**

Cənab Qasım Əliyev, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri

İmza: ___________________________

Tarix: __.__.2022